***Duyuram ağırdır, dərindir yaran...***

Bu qara xəbərdən qaraldı qanım,
Əziz dost hamıya doğmadır bu qəm.
Ağrıdı ürəyim, ağrıdı canım,
İnsan taleyini düşündüm bu dəm.

Sənə gör nə deyir bu gün hər ürək.
Əziz Heydərimiz, başın sağ olsun.
Həyat yollarında həmişəki tək
Alnın açıq olsun, üzün ağ olsun.

Uzaqdan-uzağa görürəm ki, mən
Sualsız, üzündən oxunur dərdin.
Əziz Zərifəndən ayrılırsan sən,
Hər ürək sözündən oxunur dərdin.

Dünyadan növbəylə köçəcəyik biz,
Desək ataların sözüylə, dostum.
Bəli ağlayırsan səssiz-səmirsiz
Böyük ürəyinin gözüylə , dostum.

Ömrümüz boyunca əziz itkilər
Bizdən uzaq deyil, bağrımızdadır.
Bunu yaxşı bilir hər ər oğlu ər –
Həsrəti bu ürək ağrımızdadır.

Duyuram ağrıdır, dərindir yaran,
Deyirəm ki: bu qəm, son qəmin olsun.
Ey sadə, ey nəcib, ey böyük insan,
Təsəlli ömürlük həmdəmim olsun.

***Süleyman Rüstəm***

***Zərifə xanım Əliyeva. – B.: 1998. – S.10.***